**Dövlət Statistika Komitəsində Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib**



Dekabrın 11-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Ümummilli Liderin xatirəsinə həsr olunmus anım mərasimi kecirilmisdir. Tədbir ulu öndər Heydər Əliyevin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.Tədbiri giris sözu ilə acan Dövlət Statistika Komitəsi Aparatının rəhbəri Ziyad Abbasəliyev Heydər Əliyevin həyat və fəaliyyəti, onun Azərbaycan tarixində rolu barədə məlumat vermişdir. O öz cıxışında qeyd etmişdir ki, Ümummilli Lider bütün fəaliyyəti ilə xalqa xidmət etmiş, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması ücün misilsiz işlər görmüşdür. Heydər Əliyev siyasi xəttinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi inkişafı davamlı xarakter almış, Azərbaycan sosial-iqtisadi inkisaf tempinə görə dünyanın qabaqcıl dövlətlərindən birinə cevrilmisdir. Tədbirdə Dövlət Statistika Komitəsinin əməkdaşları Saleh Mövlamov, Eldəniz Şəhniyarov, Mətanət Zeynalova Ulu öndərin Vətənimiz ucun gördüyü islərlə bağlı məruzələrlə çıxıs etmis, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövlətciliyinin qurulmasında, ölkənin inkisafında böyük xidmətlərindən danışmışlar.









Sonda tədbirə yekun vuran Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Malik Heydərov bildirmişdir ki, Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, klassik və çağdaş mənada dövlətçiliyin təməl prinsipinə istinad etməsi bu fenomen şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ekstrimal vəziyyətlərdə doğru qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillərdəndir. Ümummilli lider, müdrik və dahi şəxsiyyət Heydər Əliyevin əziz və parlaq xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

